**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

**SƏRƏNCAM**

**6 aprel 2026-cı il** **10-1/3-3-11/2026**

**Auditorlar Palatası tərəfindən ölkədə auditor fəaliyyətinin təşkili, tənzimlənməsi, kadrların hazırlanması və yenidən hazırlanması sahəsində qabaqcıl xarici təcrübənin öyrənilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 7.5-ci "Auditor adı almaq üçün imtahanların təşkil edilməsi" bəndinə uyğun olaraq auditor adı almaq üçün imtahanların təşkili və keçirilməsi, nəticələrinin rəsmiləşdirilməsi və sertifikatlaşdırılma proseslərinin qabaqcıl beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, habelə müasir çağırışlara uyğun mütərəqqi imtahan sisteminin yaradılmasına dair layihənin işlənib təqdim edilməsi məqsədilə **qərara alıram:**

1. Auditorlar Palatasında auditor adı almaq üçün imtahanların təşkili və keçirilməsi, nəticələrinin rəsmiləşdirilməsi və sertifikatlaşdırılma proseslərinin qabaqcıl beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, habelə müasir çağırışlara uyğun mütərəqqi imtahan sisteminin yaradılmasına dair layihənin işlənib hazırlanması məqsədilə aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

**İşçi qrupunun rəhbəri:**

Səbuhi Gülməmmədov – Auditorlar Palatasının icraçı direktoru

**İşçi qrupunun üzvləri:**

Altay Cəfərov – Auditorlar Palatasının Şura üzvü, sərbəst auditor;
Cəfər Həsənov – Auditor adı almaq üçün İmtahan Komissiyasının sədri, "Active Consulting CN" MMC-nin auditoru;
Elminə İsayeva – Auditorların hazırlanması və ixtisasartırma şöbəsinin müdiri;
Elmira Hacıyeva – Kadr hazırlığı idarəsinin rəisi;
İlham Süleyman – Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitənin sədri, sərbəst auditor;
Qəşəm Bayramov – Sədrin elmi-metodik məsələlər üzrə müşaviri;

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/qGyoZJxtRfSzF6%2F1l5pD3pZu0ODE637DUljI%2B7I0Yc4%3D

Şamxal Kərimov – Auditorlar Palatasının üzvü, sərbəst auditor;
Yeganə Nuriyeva – Kadr hazırlığında qabaqcıl təcrübənin tətbiqi şöbəsinin müdiri.

2. İşçi qrupuna tapşırılsın ki, qabaqcıl beynəlxalq təcrübə və mövzuya dair toplanılmış materiallar nəzərə alınmaqla üç ay müddətində müvafiq layihəni hazırlayıb təqdim etsinlər.

3. Bu Sərəncamın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

4. Bu Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/qGyoZJxtRfSzF6%2F1l5pD3pZu0ODE637DUljI%2B7I0Yc4%3D